*Əhməd Baba:*

# Nəsimi dünya poeziyasında təkrarolunmaz olduğu kimi, onun adına keçirilən ekoloji aksiya da bənzərsiz oldu



**Böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin poeziyasını beynəlxalq aləmdə təbliğini 650 min ağac əkməklə həyata keçirmək ən dəyərli təbiət quruculuğu hadisəsidir. Nəsimi söz və poeziya aləmində təkrarolunmaz bir simadır. Azərbaycanda onun adı ilə bağlı keçirilən ekoloji aksiya da bənzərsiz və dünya əhəmiyyətli oldu.**

Bu fikirləri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə ölkədə Nəsiminin yubileyi münasibəti ilə bir gündə 650 min ağac əkilməsinə münasibət bildirən Türkiyədə fəaliyyət göstərən Tarixdaş Millətlər və Cəmiyyətlər Dərnəyinin sədri Əhməd Baba AZƏRTAC-a deyib.

Azərbaycanda aparılan kütləvi yaşıllaşdırma aksiyasını müasir dünyanın qlobal problemlərindən bir neçəsinin həllinə töhfə kimi dəyərləndirən Əhməd Baba deyib: “650 min ağac əkmək barədə nəcib təşəbbüsün ortaya çıxması, aksiyanın yüksək səviyyədə təşkil olunması və insanların böyük həvəslə bu tədbirdə iştirakı Azərbaycanın müstəqillik tarixi salnaməsinə qızıl hərflərlə yazıldı.”

**AZƏRTAC**

Respublika.- 2019.-8 dekabr.- S.5.